**AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI**
**ARXEOLOGİYA VƏ ETNOQRAFİYA İNSTİTUTU**

*Əlyazma hüququnda*

**ELMİRA İDRİS qızı ABBASOVA**

# CƏNUB-ŞƏRQI ŞIRVANIN ORTA ƏSR YAŞAYIŞ YERLƏRI (IX-XVII ƏSRLƏR)

**5505.02-Arxeologiya**

Tarix üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün
təqdim olunmuş dissertasiyanın

**A V T O R E F E R A T I**

**Bakı – 2016**

***Dissertasiya işi Azərbaycan Milli Elmlər Akademiyası Arxeologiya və Etnoqrafiya İnstitutunun "İlk orta əsrlər arxeologiyası" şöbəsində yerinə yetirilmişdir.***

**Elmi rəhbər:** **Arif Məhəmməd oğlu Məmmədov**
*Tarix üzrə elmlər doktoru, professor*

**Rəsmi opponentlər:**

**Aparıcı elmi müəssisə:**

Müdafiə Azərbaycan Milli Elmlər Akademiyası Arxeologiya və Etnoqrafiya İnstitutu nəzdindəki 5505.02-"Arxeologiya" ixtisası üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün dissertasiyaların müdafiəsini keçirən F/D. 01.171 saylı Dissertasiya Şurasının "_30_" 06 ____ 2016-cı il tarixli iclasında saat "____ " keçiriləcəkdir.

**Ünvan: Az 1143, Bakı şəhəri, H. Cavid prospekti,115.**

Dissertasiya ilə Azərbaycan Milli Elmlər Akademiyası Arxeologiya və Etnoqrafiya İnstitutunun elmi kitabxanasında tanış olmaq olar.

Avtoreferat "___" 2016-cı il tarixdə göndərilmişdir.

**F/D.01.171**

Dissertasiya Şurasının Elmi katibi,

Tarix üzrə fəlsəfə doktoru: Səfər Hüseyn oğlu Aşurov

## Dissertasiyanın ümumi səciyyəsi

**Mövzunun aktuallığı**. Uzun illər ərzində Cənub-şərqi Şirvan ərazisində aparılan arxeoloji qazıntı və kəşfiyyat işləri zamanı IX-XVII əsrlər kənd və şəhər tipli yaşayış yerlərinə aid xeyli maddi mədəniyyət nümunələri aşkarlanmışdı. Əldə olunan artefaktlar təkcə Şirvan bölgəsinin deyil, o cümlədən bütövlükdə Azərbaycanın Orta əsrlər tarixinin öyrənilməsində mühüm əhəmiyyət kəsb edir. Arxeoloji tədqiqatların nəticələrinin yazılı mənbələrin məlumatları ilə uzlaşdırılaraq bölgənin real tarixinin öyrənilməsi mövzunu aktual edən əsas şərtlərdən biridir. Mövzunu aktual edən əsas amillərdən biri də ölkənin coğrafi-strateji məntəqələrindən biri olan Şirvanın (Dərbənd də daxil olmaqla) orta əsrlərdə Azərbaycan tarixində oynadığı mühüm rolu bir daha maddi faktlarla isbat etməkdir.

Arxeoloji qazıntılar nəticəsində burada aşkar edilmiş IX-XVII əsrlərə aid abidələr ayrı-ayrı tədqiqat əsərlərində, elmi hesabatlar və elmi məqalələrdə müəyyən qədər öz əksini tapmışdır. Bu sahədə dərin elmi araşdırmalara və ümumiləşdirici təhlillərə ehtiyac duyulurdu. Müdafiəyə təqdim olunan dissertasiya işində Cənub-şərqi Şirvanın kənd və şəhər tipli yaşayış yerləri kompleks şəkildə araşdırılaraq onların səciyyəvi cəhətləri və lokal xüsusiyyətləri geniş təhlil olunmuşdur.

Dissertasiya mövzusunun aktuallığını şərtləndirən amillərdən biri də Cənub-Şərqi Şirvanın yazılı mənbələrdə adı çəkilən yaşayış məskənlərinin bir çoxunun hələ bu günə qədər lokallaşdırılmamasıdır. Dissertasiya işində bu abidələrdən bir neçəsinin lokallaşdırılmasına cəhd olunmuşdur.

Cənub-şərqi Şirvanda aparılan arxeoloji tədqiqatlar bu bölgədə insanların hələ qədimdən məskunlaşdıqlarını, əkinçilik, maldarlıq və balıqçılıq təsərrüfatı ilə məşğul olduqlarını, IX-XVII əsrlərdə də bu prosesin ardıcıl şəkildə davam etdiyini izləməyə əsas verir.

Bölgədə aparılan arxeoloji qazıntıların nəticələri göstərir ki, Yaxın Şərqdə və cənubi Qafqazda baş verən siyasi proseslərlə, yadelli işğalçıların hücumları ilə

əlaqədar olaraq IX-XVII əsrlərdə Cənub-şərqi Şirvanda yaşayış məntəqələrini, əhalinin təhlükəsizliyini təmin etmək üçün qalalar tikilmiş, müdafiə sədləri qurulmuş, gediş-gəlişi asanlaşdırmaq, yerli və beynəlxalq ticarəti canlandırmaq məqsədilə çaylar üzərində körpülər salınmışdır.

Şirvanın mülayim iqlimi, əkinçilik üçün yararlı torpaqları, zəngin gil yataqlarının və yanacaq ehtiyatlarının olması, Xəzər dənizi sahilində yerləşməsi, Kür kimi bol sulu çayın olması, beynəlxalq əhəmiyyətli ticarət-karvan yollarının buradan keçməsi bölgədə kənd təsərrüfatının, sənətkarlığın müxtəlif sahələrinin, xüsusən dulusçuluğun inkişaf etməsi üçün əlverişli şərait yaradırdı. Bu isə, Cənub-şərqi Şirvanın vaxtaşırı dağıntılara məruz qalmasına baxmayaraq tezliklə dirçəlməsinə və Azərbaycanın əhalisi sıx yüksək inkişaf etmiş bölgələrindən birinə çevrilməsinə səbəb olmuşdur.

**Tədqiqat işinin xronoloji çərçivəsi.** Tədqiqat işinin xronoloji çərçivəsi IX-XVII əsrləri əhatə edir və dövrləşmə iki böyük mərhələ ilə səciyyələnir. Birinci mərhələ IX-XIII əsrləri əhatə edir. Bu dövr Azərbaycanda Babəkin başçılığı ilə Ərəb xilafətinə qarşı Xürrəmilər hərəkatı, dövlətçilik ənənələrinin dirçəlməsi, sülalələrin bir-birini əvəz etməsi (Sacilər-879-930, Salarilər-941,şədadilər-971-1086, Rəvvadilər-979-1054,Eldənizlər-1136-1225, Cəlairilər-1136-1432) və xarici hücumlarla (Monqolların -1222) yadda qalır.

İkinci tarixi mərhələ XIV-XVII əsrləri əhatə edir. Bu mərhələ, Qaraqoyunlu (1410-1468), Ağqoyunlu (1468-1503\08) dövlətlərinin yaranması, Azərbaycanın Əmir Teymur tərəfindən tutulması və Səfəvilər (1501-1736) tərəfindən Böyük Azərbaycan dövlətinin (Səfəvilər imperiyasının) yaranması ilə səciyyələnir.

**Tədqiqatın obyekti.** Elmi-tədqiqat işinin obyekti Azərbaycanın Cənub-şərqi Şirvan bölgəsi, burada arxeoloji qazıntılar zamanı aşkar olunmuş yaşayış yerləri, sosial və dini tikililər, memorial abidələr, karvansara və körpülər və digər memarlıq abidələridir. Dissertasiya işi yerinə yetirilərkən Azərbaycanın başqa bölgələrinin, xüsusən qonşu bölgələrin materiallarından müqayisəli şəkildə istifadə olunmuşdur.

**Mövzunun mənbə bazası**. Dissertasiyanın mənbə bazasını Cənub-şərqi Şirvan bölgəsinin Orta əsr yaşayış yerlərində aparılmış arxeoloji qazıntılar nəticəsində aşkar olunmuş maddi mədəniyyət qalıqları, xüsusən yaşayış yerləri, arxeoloji qazıntıların hesabatları, ayrı-ayrı abidələr haqqında monoqrafiya və məqalələr təşkil edir. Dissertasiya işi yazılarkən M.V.Vəlili (Baharlı), B. F. Minorski, A. A.Bakıxanov, Z.M.Bünyadov, S.B.Aşurbəyli, R.M.Vahidov, Q.M.Əhmədov, İ.A.Babayev, H.P, Kəsəmənli, T.Ə.Bünyadov, A.B.Nuriyev, A.M.Məmmədov, Q. C. Cəbiyev, Ə.İ.Novruzlu, A.İ.Ələkbərov, M.C.Xəlilov, T.R.Əliyev, V.A.Kvaçidze, S.M.Ağamalıyeva, E.Ə.Qasımov, R.C. Əhmədov, Ş. S. Əhmədov, B.Ə.Rəcəbova, S.Ə.Əhmədov, Q. Ə. Hacıyev, S.K.Allahverdiyeva, E.C.Abbasova, G.O.Hacıyev, V.A.Qasımlı, T.V.Əliyev, və digər tədqiqatçı alimlərin əsərlərindən, həmçinin foto materiallardan və Orta əsr tarixçi, coğrafiyaşünas, habelə səyyahların məlumatlarından istifadə edilmişdir.

**Problemin öyrənilmə dərəcəsi.**

Cənub-Şərqi Şirvan bölgəsində Qırxçıraq abidəsində ilk arxeoloji tədqiqat işləri XX əsrin 20-ci illərində Y.A. Paxomov tərəfindən aparılmışdır.

1959-cu ildə Şirvan şəhərində istilik elektrik stansiyasının tikinti sahəsindən xeyli miqdarda maddi mədəniyyət qalıqları aşkar edilmişdir. Oraya ezam olunan Azərbaycan Elmlər Akademiyası Tarix İnstitutunun əməkdaşları H.P.Kəsəmənli və İ.A.Babayev rayon mərkəzi ilə Hacıqəhrəmanlı arasında, Kür çayının sol sahilində 150-200 metr məsafədəki ərazidən 17 ədəd gil qab (bütöv halda) aşkar etmişlər. Aşkar olunan qablar ilk orta əsrlər dövrünə aiddir. Nümunələrin tapıldığı sahə tədqiqatçıların rəyinə görə, eramızdan əvvəl VIII-III və eramızın III - VI əsrlərinə aid qəbiristanlıq olmuşdur.

1960-cı ildə R.Göyüşov Qırxçıraq abidəsində arxeoloji tədqiqatlar aparmış və xeyli sayda maddi mədəniyyət nümunələri, istehsal prosesində istifadə edilən alətlər və sikkə nümunələri əldə etmişlər.

Şirvan şəhəri (Əli Bayramlı) ətrafında daha bir tapıntı 1960-cı ildə rayonun Xersonovka (Nəsimi kəndi–E.A) kəndində aşkar edilmişdir. Aşkar olunan maddi mədəniyyət nümunələri 110 ədədi gümüş sikkədən ibarət olan dəfinədir. Şirvan

şəhərindən tapılan Parfiya sikkələri ümumən Parfiya numizmatikası problemlərinə, eləcə də sikkələrin Qafqaz Albaniyasında pul tədavülünə dair bir sıra məsələləri şərh etməyə imkan verir. Həmin pulların arasında Cənubi Qafqazda Qotarzın və onun atası II Artabanın hakimiyyətinin ikinci mərhələsində kəsilmiş draxmalar da vardır. Müəllifin fikrincə, Parfiya dövründə nisbətən xırda nominalların üstünlüyü və Albaniyada əmtəə-pul tədavülünün geniş yayılması təsərrüfatda pul dövriyyəsinin inkişafına səbəb olmuşdur.

Parfiya sikkələri barədə K.V.Qolenko və Ə.Rəcəbli 1976-cı ildə "Sovet arxeologiyası" jurnalında "Əli-Bayramlı xəzinəsi və Zaqafqaziyada parfiya sikkələrinə münasibətin bəzi məsələləri", Dadaşova S.A Azərbaycan Elmlər Akademiyasının xəbərləri jurnalında "Əlibayramlı rayonunda aşkar olunan Parfiya dəfinəsi" haqqında məqalə dərc etdirmişlər. Məqalədə E.T.Nevellə istinadən 110 sikkənin hamısının Midiyanın paytaxtı Ekbatana aid olan Parfiya draxmaları olması və Cənubi Qafqazın numizmatik tapıntıları içərisində II-IV əsrlərə aid Qotarzın draxmalarının üstünlük təşkil etməsi fikri bir daha təsdiqlənir.

1969-cu ildə isə arxeoloji tədqiqat işləri V. Kvaçidze tərəfindən davam etdirilmişdir. Onun, uzun illər I və II Bəndovanda, Mahmudabadda (Qırxçıraq)- həm quruda, həm də su altında qalmış şəhər yerlərində arxeoloji tədqiqat işləri aparmış və bir sıra elmi nəticələr əldə etmiş, o cümlədən ilk dəfə Qırxçıraq abidəsinin topoqrafiyasını şərh etmişdir.

Tarixi-arxeoloji araşdırmalar göstərir ki, Qırxçırağın əsası Elxani hökmdarı Sultan Mahmud Qazan xan (1295-1304) tərəfindən qoyulmuşdur. Belə ki, məhz onun göstərişi ilə Muğanda – Xəzər dənizinin yaxınlığında Kür çayının sahilində Mahmudabad adında şəhər salınmışdır. XIV əsr tarixçisi Həmdullah Qəzvini də "Müzhət-əl Qulub" əsərində bunu təsdiqləyir: "Mahmudabad dəniz kənarında vaqe olub, Qazan xan tərəfindən bina etdirilmişdir. Beşinci iqlimdədir".

1970-1975-ci illərdə Şirvan Milli parkında-Nord-Ost-Qoltuk (Bəndovan burnu və ya Bəndovan tirəsi-E.A) sahil rayonunda V.Kvaçidzenin rəhbərliyi ilə

quruda və suda arxeoloji qazıntı işləri nəticəsində şərti olaraq I Bəndovan adlanan orta əsr şəhərinin qalıqları aşkar edilmişdir.

Cənub-şərqi Şirvanın arxeoloji abidələrinin böyük əksəriyyəti Güngörməz, Qubalı və Tava kəndləri ərazisində yerləşir və ilk dəfə 1958-ci ildə elmə məlum olub. Bu illərdə R.M.Vahidov, 2003-cü ildən isə Ş.S. Əhmədov tərəfindən qeydiyyata alınmış qəbirlər, kurqan, müdafiə istehkamı, memorial abidələr və s. haqqında monoqrafiya çap edilmişdir. S.Əhmədov (52, 40-43) 2006-cı ildə nəşr etdirdiyi "Pirsaatçay hövzəsinin ilk orta əsr arxeoloji abidələri" monoqrafiyasında Yanıq Qubalı kəndi ərazisindəki yaşayış yeri, orada aşkar edilmiş tikinti qalıqları, təndirlər, zəngin maddi mədəniyyət nümunələri barədə geniş məlumat verir. Qazıntı nəticəsində təndir qalıqları, təsərrüfat küpləri və saxsı qabların müxtəlif növlərinə də təsadüf edilmişdir. Bundan əlavə, müdafiə istehkamı ərazisindən kvadrat formalı kürə qalığı da tapılmışdır.

Güngörməz müdafiə qalasında aparılan arxeoloji qazıntılar barədə A.M.Məmmədovun "Arxeologiya və Etnoqrafiya" kitabında daha geniş məlumat verilir.

Kolanı yaşayış yerində aparılmış kəşfiyyat qazıntısı nəticəsində aşkarlanmış tikinti qalıqları, şirsiz və şirli saxsı məmulatlarının tədqiqi yaşayış yerində həyatın XV əsrədək davam etdiyini təsdiqləmişdir.

2000-2002-ci illərdə Cənub-Şərqi Şirvanın inkişaf etmiş və son orta əsr arxeoloji abidələrində Ə.İ.Novruzlu tərəfindən (müəllifin də iştirakçısı olduğu) kəşfiyyat xarakterli arxeoloji tədqiqat işləri aparılmış və şərti olaraq Şirvan şəhəri adlandırdığımız şəhər yerində müxtəlif tikinti qalıqları və dulusçuluq məhəlləsi aşkar edilmiş, Cəmcəmli, Çaxnaq yaşayış yerində, Güngörməz istehkamında, Şəhristan qalasında, Kənd yeri yaşayış yerində, Kolanı müdafiə istehkamında ilk orta əsr arxeoloji abidələri - torpaq, küp qəbirlər, daş qutu qəbirləri (Poladlı, Alıbəyli, Güngörməz, Cəmcəmli) öyrənilmişdir.

Pirsaat çayı (Hacıqabul) ətrafında və onun orta axarlarında aparılmış arxeoloji qazıntı işləri ilk orta əsrlərdə burada kiçik şəhər-qalaların mövcudluğunu göstərir. Bu dövrdə əhalinin əsas məşğuliyyəti maldarlıq və

əkinçilik olsa da, sənətkarlığın inkişafı da izlənilir. Göründüyü kimi Pirsaatçay ətrafında ilk orta əsr arxeoloji abidələrinin tədqiq edilməsinə baxmayaraq, XI - XVII əsr arxeoloji abidələri kifayət qədər öyrənilməmişdi.

Mişovdağ ətrafında Qazıməmməd şəhəri yaxınlığında - I Qazıməmməd yaşayış yerində aparılmış arxeoloji tədqiqatlar nəticəsində XII-XV əsrlərə aid tikinti qalıqları ilə yanaşı, digər zəngin maddi-mədəniyyət nümunələri, o cümlədən ovdan qalıqları da aşkar edilmişdir.

II Qazıməmməd yaşayış yeri də hazırkı eyniadlı şəhərin şərq qurtaracağında yerləşir. Burada yerüstü tədqiqatlarla kifayətləndiyindən, aşkar edilmiş maddi mədəniyyət nümunələri də təqribən XII-XIII əsrlərə aiddir.

Orta əsr Şirvan şəhəri ətrafında bir neçə müvəqqəti yaşayış yerləri də tədqiq edilmişdir. Bu sırada Şəkixan obası, Tava, Daşağıl, Keçi yatağı və Göy-təpə müvəqqəti yaşayış yerlərini misal göstərmək olar. Onlardan yüzilliklər boyu qışlaq kimi istifadə edilmişdir və burada hər hansı bir mədəni təbəqə izlənilmir.

2000-2002-ci illərdə Şirvan şəhəri ətrafında aparılmış arxeoloji kəşfiyyat işləri nəticəsində orta əsr şəhərinin ayrıca sənətkarlıq- dulusçuluq məhəlləsi aşkar edilmişdir. Sənətkarlıq məhəlləsi şəhər əhalisinin həyat tərzi, məişəti, təsərrüfatı və mədəniyyəti, dövrün istehsalı barədə maraqlı məlumatlar verir. Çay yatağının sağ sahilində böyük ustalıqla inşa edilmiş, diametri 230-300 sm olan dulus kürələri bir cərgədə səliqə ilə düzülmüşdür.

Qırxçıraq abidəsində arxeoloji tədqiqat işlərinin sonrakı mərhələsi Azərbaycanda müstəqillik illərinə təsadüf edir. 2001-ci ildə N. Müseyiblinin apardığı arxeoloji qazıntılar nəticəsində xeyli sayda maddi mədəniyyət qalıqları ilə birlikdə 11 ədəd sikkə aşkar edilmişdir. Bu sikkələr XV əsrdə Qaraqoyunlu hökmdarı Qara Yusifin adından zərb edilmişdir. Maddi mədəniyyət və sikkə nümunələrinə əsasən N. Müseyibli Qırxçıraq abidəsinin Orta əsrlərdə inkişaf etmiş yaşayış yeri olduğu qənaətinə gəlmişdir.

2011- ci ildə Ələt-Masallı magistral yolunun çəkilişi ilə əlaqədar Qırxçıraqda 100 metrlik qazıntı sahəsində arxeoloji qazıntılar A. M. Məmmədovun rəhbərliyi ilə davam etdirilmiş və 2,8 metr qalınlığında mədəni təbəqənin olduğu

müəyyənləşdirilmişdir. Arxeoloji qazıntılar burada XVII əsrin sonuna qədər intensiv yaşayış məskəninin olduğunu təsdiqləmişdir.

Cənub-şərqi Şirvanın ikinci yaşayış yeri Şirvan şəhəridir. Tarixi və arxeoloji baxımdan dəyərli olan maddi mədəniyyət və sikkə nümunələri burada ilk dəfə olaraq, təsərrüfat işləri görüldüyü zaman aşkar edilmişdir. Tapılmış nümunələr haqqında H. P. Kəsəmənli və İ. Ə. Babayev 1963-cü ildə, K. V. Qolenko, Ə. Rəcəbli və S. Dadaşova isə 1976-cı ildə əraziyə ezam edilmişlər. Onlar buradan tapılmış arxeoloji və dəfinə barədə yerli və xarici jurnallarda məqalələr dərc etdirmişlər.

Cənub-şərqi Şirvanın Şəhərgah abidəsində kəşfiyyat xarakterli arxeoloji tədqiqatlar 1978-ci ildə F. L. Osmanov, F.A. İbrahimov, S. B. Hüseynova və M.S. Əlicanov tərəfindən aparılmış və çoxsaylı maddi mədəniyyət nümunələri qeydə alınmışdır.

2000-2002-ci illərdə Ə. İ. Novruzlu, 2009-2010-cu illərdə isə Q. C. Cəbiyev, E.İ.Abbasova tərəfindən davam etdirilmiş, Ə. İ. Novruzlu Şəhərgahın cənubuda, Q. C. Cəbiyev və E.İ.Abbasova isə Kür çayının sol sahilində arxeoloji qazıntı işləri aparmışlar.

V. Kvaçidze uzun illər I Bəndovan və II Bəndovanda, Mahmudabad və Qırxçıraq (həm quruda, həm də su altında) şəhər yerlərində arxeoloji tədqiqat işləri aparmış və bir sıra elmi nəticələr əldə etmişdir.

Uzun illər ərzində Orta əsr Kürsəngi yaşayış yerində, Qırxçıraq, I və II Bəndovan abidələrində, "Şəhərgah"da, habelə bir sıra kənd tipli yaşayış məskənlərində, yarımköçəri əhalinin yaşadığı qışlaqlarda arxeoloji qazıntı işləri aparılmış və çoxsaylı maddi mədəniyyət nümunələri aşkar edilmişdir. Kifayət qədər zəngin olan tapıntılar barədə tədqiqatçılar qısa hesabatlar versə də, nəticələr ümumiləşdirilməmiş və sistemləşdirilməmişdir.

**Tədqiqatın məqsəd və vəzifələri.** Tədqiqatın əsas məqsədi IX-XVII əsrlərdə Cənub-şərqi Şirvan bölgəsində yaşayış məskənlərinin yaranması, inkişafı və tənəzzül tarixini, müdafiə sistemləri və su təchizatını, əhalinin təsərrüfat həyatını, sənətkarlıq sahələrini, iqtisadi-ticarət əlaqələrini tədqiq etməkdən

ibarətdir. Eyni zamanda dissertasiya işində dini təyinatlı tikililər (məscidlər, pirlər, memorial abidələr və s.), sosial təyinatlı tikililər (hamamlar, bazarlar və s.) da müəyyən qədər araşdırılmışdır. Tədqiqat işinin məqsədlərindən biri də yazılı mənbələrin məlumatları ilə arxeoloji qazıntıların nəticələrinin uzlaşdırılması, və müqayisəli təhlili əsasında bölgənin real tarixinin öyrənilməsidir.

Dissertasiya işi yazılarkən aşağıdakı vəzifələrin yerinə yetirilməsi nəzərdə tutulmuşdur.

Cənub-şərqi Şirvanın IX-XVII əsr yaşayış yerlərini kompleks şəkildə öyrənmək, yeni aşkar olunmuş yaşayış yerlərinin xəritəsini çıxarmaq, bölgənin tarixi-mədəni inkişafı haqqında dolğun təsəvvür yaratmaq;

- Tədqiqatın xronoloji çərçivəsinə uyğun olaraq bölgədə tədqiq olunmuş bütün arxeoloji abidələrin pasportunu hazırlamaq;
- şəhər yerlərinin tədqiqinə əsaslanaraq mürəkkəb siyasi proseslər şəraitində urbanizasiya proseslərini izləmək;
- tədqiq olunan dövrə aid şəhər və kənd yerlərini, memorial abidələri, məşhur körpüləri və karvansaraları əks etdirən xəritə hazırlamaq;
- arxeoloji materiallar əsasında təsərrüfat və sənətkarlıq sahələrini tədqiq etmək və müqayisəli təhlillər aparmaq;
- tədqiqatın nəticəsi olaraq bölgənin Azərbaycanın sosial, iqtisadi və siyasi həyatındakı yeri və rolunu müəyyənləşdirmək.

**Tədqiqatın elmi yeniliyi.** Dissertasiya işi Cənub-şərqi Şirvanın IX-XVII əsr yaşayış yerlərinin öyrənilməsinə həsr olunmuş ilk ümumiləşdirici elmi-tədqiqat işidir. İlk dəfə olaraq Cənub-şərqi Şirvanın IX-XVII əsr maddi mədəniyyət abidələri qruplaşdırılmış, kompleks şəkildə müqayisəli təhlillər aparılmış, təsərrüfat və sənətkarlıq sahələrinin bölgə üçün xarakterik xüsusiyyətləri müəyyənləşdirilmiş, dini abidələri, ticarət əlaqələri tədqiq edilmişdir. Müxtəlif illərdə ayrı-ayrı tədqiqatçılar tərəfindən Cənub-şərqi Şirvan bölgəsində aparılmış arxeoloji qazıntıların nəticələrinin toplu şəkildə ümumiləşdirilməsi tədqiqatın mühüm yeniliklərindəndir.

**IX-XVII** əsrlərdə Cənub-şərqi Şirvanda mövcud olmuş maddi mədəniyyətin özündən əvvəlki ənənələr əsasında inkişaf etməsi və genetik bağlılığı məsələsi elmi dəlillərlə əsaslandırılmış, Azərbaycanın digər bölgələrindəki və qonşu ölkələrin həmdövr abidələrinin maddi mədəniyyət nümunələri ilə müqayisələr aparılmışdır.

**Tədqiqatın elmi-metodoloji əsası.** Dissertasiya mövzusu işlənərkən IX-XVII əsrlərdə mövcud olmuş maddi mədəniyyətin özündən əvvəlki ənənələr əsasında inkişaf etməsi, habelə varislik prinsipinin izlənməsi və maddi mədəniyyətin yerli zəminlə bağlı xüsusiyyətləri elmi dəlillərlə əsaslandırılmış, Azərbaycanın və onunla qonşu ölkələrin həmdövr abidələrinin maddi mədəniyyət nümunələri ilə müqayisələr aparılmışdır. Dissertasiya işi yerinə yetirilərkən, arxeoloji faktların tarixi mənbələrin məlumatları ilə uzlaşdırılması nəticəsində düzgün nəticələr almaq üçün elmi müqayisəli təhlil metodundan, arxeoloji tapıntıların tədqiqi zamanı isə müasir arxeologiya elmində qəbul edilmiş tipoloji təhlil metodundan istifadə edilmişdir.

**Tədqiqatın nəzəri və əməli əhəmiyyəti.** Dissertasiya işinin elmi nəticələri aşağıdakı istiqamətlərdə tətbiq edilə bilər:

- Azərbaycan arxeologiyasında bu mövzuya üzrə monoqrafik əsərlərin yazılmasında;

- Şirvanın tarixi və arxeologiyasının yazılmasında;

-Çoxcilidlik Azərbaycan tarixi, Azərbaycan arxeologiyasına dair ümumiləşdirici əsərlərin yazılmasında;

- Azərbaycanın arxeoloji abidələrinin xəritələşməsində;

- arxeoloji abidələrin siyahısının hazırlanması və dəyərləndirilməsi işində, diyarşünaslıq muzeylərinin təşkilində;

- Azərbaycanın tarixi və tətbiqi-incəsənətinə dair dərsliklərin hazırlanmasında;

- Dərsliklərin hazırlanmasında;

-Bölgədə turizmin təşkilində.

**Dissertasiyanın aprobasiyası**: Dissertasiya işi Azərbaycan MEA Arxeologiya və Etnoqrafiya İnstitutunun "İlk orta əsr arxeologiyası" şöbəsində yerinə yetirilmişdir. Tədqiqatın əsas məzmunu müəllif tərəfindən müxtəlif elmi konfransların materiallarında və elmi jurnallarda nəşr edilmiş məqalələrdə əksini tapmışdır.

**Dissertasiyanın quruluşu**: Dissertasiya işi giriş, üç fəsil, nəticə, istifadə edilmiş ədəbiyyatın siyahısı və illüstrativ materiallardan ibarətdir.

## DİSSERTASİYANIN ƏSAS MƏZMUNU

**Dissertasiyanın** girişində mövzunun aktuallığı, tədqiqatın xronoloji çərçivəsi, tədqiqatın məqsəd və vəzifələri, mövzunun mənbəşünaslıq bazası, problemin öyrənilmə dərəcəsi, tədqiqatın elmi yeniliyi, tədqiqatın nəzəri-metodloji əsası, tədqiqatın əməli əhəmiyyəti, dissertasiyanın aprobasiyası və dissertasiyanın quruluşu haqqında məlumat verilir.

Dissertasiya işinin **I fəsli** "Cənub-şərqi Şirvanın arxeoloji abidələri**"** adlanır. Bu fəslin "Yaşayış yerləri"(1.1.) adlı birinci yarımfəsli beş - Kənd tipli yaşayış yerləri (1.1.1), Şəhər tipli yaşayış yerləri (1.1.2), Müvəqqəti yaşayış yerləri (1.1.3), qəbir abidələri (1.1.4), İctimai və memorial tikililər (1.1.5). hissəyə bölünür:

**1.1. Yaşayış yerləri** adlanan I yarımfəsildə Cənub-şərqi Şirvan bölgəsinə daxil olan yaşayış yerləri haqqında ümumi məlumat verilir və yaşayış yerləri-şəhər yerləri, kənd tipli yaşayış yerləri, müvəqqəti yaşayış yerləri adı ilə üç qrupa bölünür.

1.1.1.Cənub-şərqi Şirvanın **"**Kənd tipli yaşayış yerləri" arxeoloji və etnoqrafik baxımdan müəyyən qədər araşdırılmışdır. Tədqiq edilən bölgənin abidələri içərisində kənd tipli yaşayış yerləri çoxluq təşkil edir. Dissertasiya işində kənd tipli yaşayış yerlərinin plan quruluşu, əldə olunan arxeoloji materiallar haqqında geniş məlumat verilir. Hacıqəhrəmanlı, Kolanı, Quşçu, Bəy yeri, Cəyirli, I Qazıməmməd, Oba, I Ərəbşahverdi, II Ərəbşahverdi, Dağ Xillə

yaşayış yerlərinin coğrafi mövqeyi, quruluşu, tikililərin tipi şərh edilmişdir. Cənub-şərqi Şirvanın İlk və Orta əsr kənd tipli yaşayış yerləri bir-birindən müəyyən məsafədə, daha çox hündür yerlərdə salınmışdır. Bunun başlıca səbəbi kənd əhalisinin güclü daşqınlardan qorunması, işlək yollara nəzarət etmələri, içməli və əkin sularından istifadə etmələri və əkin sahələrinin qorunması ilə izah olunur. Digər amillərdən biri də hündür ərazilərdə - dağ döşlərində və təpələrdə yerləşən yaşayış yerlərinin təbii müdafiə qabiliyyətinə malik olması idi. Kənd tipli yaşayış yerlərinin digər başlıca əlamətlərindən biri də mədəni təbəqənin olmasıdır.

1.1.2. **Şəhər yerləri.** Birinci yarımfəslin ikinci hissəsi "Şəhər tipli yaşayış yeri" adlanır. Cənub-şərqi Şirvanın şəhər tipli yaşayış yerləri planlı şəkildə inşa edilmişdir. Şəhərlər relyefə uyğun olaraq əsasən düzənlik və su mənbələrinə yaxın ərazilərdə salınırdı. Qırxçıraq abidəsi qala divarları ilə möhkəmləndirilmişdi.

Müşovdağın ətəkləri boyunca düzənlik ərazidə, mədənlərə gedən yolun üstündə yerləşən və qala divarları ilə möhkəmlənən Şirvan şəhər yeri Kür çayının sol sahilində, Şəhərgah Orta əsr şəhər yeri Kür çayının hər iki sahilində, Qırxçıraq şəhər yeri Kür çayının iki qolu arasında, I Bəndovan və II Bəndovan şəhər yeri isə Kürün deltasında-Xəzər dənizinin sahilində yerləşmişdir.

Mişovdağın ətəkləri boyunca yerləşən Şirvan şəhər yeri 40 ha sahəni əhatə edir. Tədqiqatlar zamanı (2000-ci ildə) oradan dulus kürələri və çoxsaylı şirsiz və şirli saxsı qablar aşkar edilmişdir. Qeyd etmək lazımdır ki, ellips formalı saxsı dulus kürələri XI-XIV əsrlərdə şəhərdə və ətraf ərazilərdə yaşayan əhalinin saxsı qabla təmin olunmasında əsas rol oynamışdır.

Şəhərgah yaşayış yeri 50 ha-dır. Tədqiqatlar zamanı buradan 5 otaqdan ibarət 600 $m^2$ sahəsi olan hamam kompleksi aşkar edilmişdir. Monqolların hücumları zamanı (XIII əsrin I yarısı) dağıntıya məruz qalan hamam kompleksinin bünövrəsi çay daşından, üst hörgüsü, istilik sistemi, taxçaları isə bütövlükdə bişmiş kərpicdən inşa edilmişdir. Yaşayış yerində aparılmış arxeoloji qazıntılar nəticəsində dekor bəzəyi ilə seçilən şirli qablar, onların üzərinin zəngin

sxematik və ərəb qrafikalı ornamentlərlə bəzədilməsi dulusçu ustaların yazı mədəniyyətinə malik olduğunu təsdiqləyir. Aşkar edilmiş sikkə nümunələri burada yerli zərbxananın mövcud olduğunu ehtimal etməyə əsas verir. Şəhərgah yaşayış yerindən tapılmış, diametrləri 12-20 mm, çəkiləri 0.5-0.1; 1.02 qram olan sikkələrdən birinin reversində Şirvanşah Mənuçöhrün, aversində isə “Allahdan başqa Allah yoxdur”, yazıları zərb edilmişdir. Digər sikklər isə Hülakilər dövrünə aiddir. Şəhərgah yaşayış yeri ilkin arxeoloji tədqiqatlara əsasən birtəbəqəlidir. Arxeoloji və yerüstü materiallar Şəhərgah yaşayış yerinin XII əsr və XIII əsrin əvvəllərinə aid olduğunu deməyə əsas verir.

Şəhərgahın lokallaşdırılması mübahisəlidir. Belə ki, bəzi tədqiqatçılar Şəhərgahın Azərbaycanın mühüm Orta əsr şəhərlərindən biri olduğunu, bəziləri isə ərəb mənbələrində adı çəkilən Şirvan şəhərinin qalıqları olduğunu qeyd edirlər

Qırxçıraq şəhər yerinin (Salyan rayonu) sahəsi 50 ha-dır. XIX əsrdə Qırxçıraqda olmuş səyyahlar və həvəskar arxeoloqlar bu ərazidə daşdan və bişmiş kərpicdən hörülmüş binaların, köşklərin (müvəqqəti dayanacaq), karvansara, məscid və minarələrin olduğunu qeyd etmişlər.

Y.A.Paxomov tərəfindən XX əsrin 20-ci illərində Qırxçıraqda aparılan qazıntı işləri zamanı xeyli sayda müxtəlif təyinatlı saxsı, şüşə, mis əşyalar və sikkə nümunələri toplanmışdır. 1969-cu ildə Azərbaycan Tarixi Muzeyinin (ATM) sualtı arxeoloji ekspedisiyası Bəndovan şəhər yerini öyrənməklə yanaşı, Qırxçıraq yaşayış yerində də kəşfiyyat məqsədi ilə arxeoloji axtarışlar aparmışlar. Tədqiqatlar nəticəsində çoxsaylı maddi mədəniyyət nümunələri əldə edilmişdir. Tapıntılara əsasən şəhərin XII-XVI əsrə aid olduğu öyrənilmişdir.

Qırxçıraq şəhər yerinin etimologiyası da olduqca maraqlıdır. Tədqiqatlar zamanı aşkar olunan sikkələrin bəzilərinin üzərində Mahmudabad və Guştəsfi şəhərlərinin adları zərb edilmişdir. Eyni zamanda bəzi sikkələrin üzərində türk tayfalarına məxsus ”xoşbəxtlik düyünü” adlanan damğaları vardır.

Uzun illər aparılmış tədqiqatlar onu deməyə əsas verir ki, mis pullar adətən zərb edildiyi ərazidə işlənir, lakin qızıl, gümüş sikkələr kimi xarici tədavüldə

istifadə olunmurdu. Məhz mis sikkələrin Mahmudabadda kəsilməsi Qırxçıraq adlı şəhərin də bu ərazidə yerləşdiyindən xəbər verir.

"Gülüstani-İrəm" əsərinin müəllifi A.A.Bakıxanov da Mahmudabadın dərya kənarında-Kür çayının iki qolu arasında yerləşdiyini qeyd etmişdir. Bütün bunlara əsasən XIV əsrdə Qazan xan tərəfindən salınan Mahmudabadın XII-XIII əsrlərdə mövcud olmuş Qırxçıraq adlı yaşayış yerinin xarabalıqlarında inşa edilmiş şəhər olduğunu ehtimal etmək olar.

XIII əsrin sonu XIV əsrin əvvəllərində Bəndovan Xəzərin suları altında qaldıqdan sonra Qırxçıraqda həyat yüksəlməyə başlamış və Bəndovanın məşhur sənətkarları şəhərin çiçəklənməsində iştirak etmiş etmişdir. XIV-XVII əsrlərdə Şirvanın zəngin vilayəti olan Güştəsfi iri sənətkarlıq, ticarət və inzibati mərkəz olmuşdur.

Böyük sərkərdə Əmir Teymur (XIV əsrin sonu) bu şəhərdə olmuş, Səfəvi hökmdarı (XVI əsrin əvvəlləri) I Şah İsmayıl isə öz qoşunları ilə qış ayını Mahmudabadda keçirmişdir. Səfəvi əyanı və "Şərəfnamə" əsərinin müəllifi Şərəfxan Bitlisi bir müddət Mahmudabadın hakimi olmuşdur.

Mahmudabad şəhərinin (Qırxçıraq) XV-XVII əsr siyasi tarixi haqqında Yəhya Qəzvininin "Lübbət ət-təvarix", Xandəmirin "Həbib əs-siyər", Qara Əhməd Quminin "Xülasət ət-Təvarix, Xurşahın "Tarixi-ilçiyi Nizamşah" əsərlərində də ətraflı məlumatlar verilir.

Cənub-Şərqi Şirvanın şəhər yerlərində aparılan arxeoloji tədqiqatlar göstərir ki, hər iki şəhər mövcud olduğu dövrlərdə həm inkişaf, həm də tənəzzül dövrləri keçirmişdir. Sənətkarlığın müxtəlif sahələrinin inkişaf etməsi əhalinin sıxlığı ilə nəticələndiyindən şəhərətrafı rayonlar genişlənmişdir. Bunun nəticəsində şəhərlərin müdafiəsi gücləndirilmişdir. Təsərrüfat əhəmiyyətli tikililər, insanların gündəlik məişətində və təsərrüfat həyatında böyük əhəmiyyət kəsb edən su təchizatı qurğuları, yeni tipli kürəbəndlər, şəhərlərin inkişafında və mədəni həyatında müsbət rol oynamışdır.

Şəhərlərin planlı şəkildə salınması, evlərin memarlıq üslubunda inşası, qala divarlarının və yardımçı binalarının suvanması (suvaqların qalınlığı 5-8 sm-dir),

küçələrin və meydançaların, məhəlli yolların, həyətlərin çay daşları ilə döşənməsi, saxsı tünglərlə su çəkilməsi, su bəndlərinin hörülməsi şəhər inkişafın əsas göstəricilərindəndir.

“Müvəqqəti yaşayış yerləri” (1.1.3) birinci fəslin üçüncü yarımfəslidir. Bu fəsildə Orta əsr Şirvan şəhəri yaxınlığında mövcud olmuş müvəqqəti yaşayış yerləri - Daşağıl, Şəkixan obası, Tava, Nemət Tava, Keçi yatağı, Çıraqlı, Mişovdağ obalıqları haqqında məlumat verilir. Qeyd edək ki, bu yataqların əksəriyyəti Mişovdağın ətəklərində yerləşir və bu gün də istifadəyə yararlıdır.

Adları çəkilən yaşayış yerlərində yerüstü maddi mədəniyyət nümunələri XI-XV əsrlərə aid şirsiz saxsı məmulatları ilə məhdudlaşır.

Müvəqqəti yaşayış yerlərindən qışlaq kimi istifadə edilmişdir. Adlarından da göründüyü kimi Şəkixan obası şəkililərin, Tava isə eyni adlı kəndin obası olmuşdur.

**Oba** yaşayış yerinin 2 ha-qədər sahəsi var. Yerüstü arxeoloji materiallar buranın XI-XVIII əsrlərə aid olduğunu deməyə əsas verir.

**Şəkixan** obası nisbətən geniş əraziyə malik olmaqla, (4-5 ha) evlərin tikintisində Mişovdağdan və ətraf ərazilərdən gətirilən daşlardan istifadə edilmişdir. XI-XVII əsrlərə aid bu müvəqqəti yaşayış yerində müxtəlif təyinatlı şirsiz və şirli saxsı qablara təsadüf edilmişdir.

***Birinci*** *fəslin dördüncü yarımfəsli “Qəbir abidələri” (1.1.4) adlanır. Cənub-Şərqi Şirvan bölgəsinin qəbir abidələri arxeoloji baxımdan tədqiq edilməmişdir. Buradakı qəbir abidələri yerüstü əlamətlərinə görə torpaq və daş qutu (XI-XVII əsrlər) qəbirlərdən ibarətdir. Bunlar əsasən Mişovdağın cənub ətəklərində (3-4 ha sahəni əhatə edir) yerləşən “Şəkixan oba qəbiristanlığı”, “Çılpaklı” (2 ha) və “El qəbristanlığı”dır. Ərazisi 7-8 ha-dır.*

**I fəslin** beşinci yarımfəsli (1.1.5.)“İctimai və memorial tikililər”adlanır. Cənub-şərqi Şirvanın memorial abidələri, əsasən pirlər və xanəgahlardan ibarətdir. Bu abidələr (pirlər) olduqca sadədirlər. El qəbiristanlığında olan Vağam piri VIII-XII əsrlərdə sufi dərvişlərin, şeyxlərin yığıncaq məskəni kimi fəaliyyət göstərmişdir. Digəri Çılpaklı qəbiristanlığında sənduqə formalı Dəmro piridir.

Pir Hüseyn xanəgahı Cənub-şərqi Şirvanın unikal memarlıq abidəsidir. Abidə dövrünün tanınmış şeyxi Hüseynin qəbri üzərində ucaldılmışdır. XII əsrdə Şirvan-Abşeron memarlığı üslubunda inşa edilən abidə mədrəsə, karvansara kimi fəaliyyət göstərmişdir.

**II fəsil** "Təsərrüfat həyatı" adlanır və dörd yarım fəsilə bölünür. 2.1. Bölgənini təbii-coğrafi şəraiti. Xəzər dənizi və Kür çayı boyunca yerləşən Cənub-şərqi Şirvan bölgəsinin iqlimi, landşaftı və geoloji xüsusiyyətləri, həmçinin xammal və su ehtiyyatları haqqında ətraflı məlumat verilir. Burada Yaqut əl Həməvinin, A.A. Bakıxanovun, M.Vəlillinin, M.A.Müseyibovun və s. müəlliflərin əsərlərinə istinad edilmişdir.

2.2. Əkinçilik. Cənub-şərqi Şirvan ərazisinin təbii-coğrafi şəraiti, münbit torpağa və bol suya malik olması burada əkinçiliyin inkişafı üçün əlverişli imkanlar yaratmışdır. Müxtəlif növ dənli bitkilər yetişdirilən bölgədə yalnız süni suvarma əkin sahələri deyil, dəmyə əkin yerləri də öz məhsuldarlığı ilə daima seçilib. Dövrün əkin-biçin alətləri içərisində oraq, dəryaz, xış, gavahın və s. vardır. Cənub-şərqi Şirvanın IX-XVII əsr abidələrində aparılan arxeoloji tədqiqat işləri zamanı aşkarlanmış əkin və biçin alətləri, həmçinin arpa, buğda qalıqları bölgənin qədim əkinçilik mədəniyyətinin səviyyəsinin göstəricisidir.

Əçinkiliyin mühüm sahələrindən biri də bağçılıq və bostançılıqdır. Əkin üçün kotandan istifadə Cənub-şərqi Şirvanın münbit torpaqlarında bağçılıq, bostançılıq və tərəvəzçilik kimi yardımçı sahələrin inkişafına imkan verirdi. Arxeoloji qazıntılar zamanı bağçılıq, bostançılıq təsərrüfatında istifadə olunan müxtəlif əmək alətlərinə, meyvə çəyirdəklərinə və içərisində mət qalıqları olan təsərrüfat küplərinə rast gəlinib. Təsərrüfatın bu sahələrinin məhsuldarlığının inkişafına IX-XVII əsrlərdə Cənub-şərqi Şirvanın suvarma kanalları və süni suvarma şəbəkələri geniş şərait yaratmışdır.

2.3.Mardarlıq. IX-XVII əsrlərdə Cənub-şərqi Şirvan əhalisinin gündəlik məişətində əkinçilkilə yanaşı maldarlıq təsərrüfatı da əsas yerlərdən birini tutur. Əsasən iri və xırda buynuzlu heyvanlar yetişdirilirdi. Tədqiq olunan bölgənin

təbii-coğrafi şəraiti burada maldarlığın yaylaq-qışlaq təsərrüfatının inkişafına şərait yaratmışdır.

Kür çayının yaxınlığında yaşayan Cənub-Şərqi Şirvan əhalisinin gündəlik həyatında **balıqçılıq** təsərrüfatı mühüm rol oynamış, onların əsas gəlir mənbələrindən biri olmuşdur. Balıqçılıq təsərrüfatı ilə məşğul olan balıqçılar sahil boyu balıq vətəgələri qururdular və bu vətəgələrdə yerli əhali ilə yanaşı Azərbaycanın müxtəlif bölgələrindən gələnlər də çalışırdılar.

Cənub-şərqi Şirvanın fauna və florasının zənginliyi burada ovçuluğun inkişafı üçün zəmin yaratmışdır.

Qayaüstü ov təsvirləri, arxeoloji qazıntılar zamanı tapılan əmək alətləri, osteoloji qalıqlar, müxtəlif ləvazimatları, qabların üzərindəki zoomorf təsvirləri maldarlıq, balıqçılıq və ovçuluq təsərrüfatının inkişaf səviyyəsini aydınlaşdırmağa imkan verir.

**II fəslin** dördüncü yarımfəsli (2.4.) “**Sənətkarlıq”** adlanır. Tədqiqatlar Cənub-şərqi Şirvanda Orta əsrlər dövründə zəngin daşişləmə, sümükişləmə, qara və əlvan metallar istehsalında, müxtəlif çeşidli keramik və nəfis şüşə qabların, habelə zərgərlik nümunələrinin hazırlanmasında və yeni sənət sahələrinin yaranmasında mühüm yüksəliş olduğunu göstərir.

Cənub-Şərqi Şirvanın ərazisi gil ehtiyatları ilə zəngin olduğundan burada dulusçuluq sənətinin özünəməxsus inkişaf yolu olmuşdur. Dövrün dulusçuluq sənətinin vəziyyətini və inkişaf səviyyəsini əks etdirən mühüm amillər arxeoloji qazıntılar zamanı aşkar edilmiş dulus kürələri, saxsı qablar və onların istehsalı zamanı istifadə edilən əmək alətləridir.

Cənub-şərqi Şirvanın saxsı qabları hazırlanma texnologiyasına və zəngin dekor bəzəklərinə görə bir-birindən fərqlənir. Belə ki, Şirvan ərazisində kəşfiyyat xarakterli arxeoloji tədqiqatlar zamanı aşkar edilən qab nümunələri daha çox nəbati təsvirlidirsə, Qırxçıraq və Bəndovandan tapılmış qab nümunələri zoomorf təsvirli, Şəhərgah keramik qabları isə sxematik və həndəsi ornamentlərlə işlənmişdir.

**Küplər.** Forma və ölçülərinə görə küplər armudvarı və şargövdəli olmaqla iki qrupa bölünürlər.

**Küpə tipli qablar**dan qablardan əsasən ağartı və yağ məhsullarının saxlanmasında istifadə edilmişdir.

Mayelərin saxlanması və daşınmasında istifadə olunan qabların əsas hissəsini səhəng, dolça, bardaq və eyni formalı süzgəcli qablar təşkil edir. Səhənglər digər qablarla müqayisədə nisbətən tutumlu və uzunsov olmaları ilə fərqlənir.

**Bardaqlar** səhənglərdən tutumlarına görə fərqlənir. Formalarına görə şarşəkilli və armudvarı olub, boğazları dar, ağız hissələri isə qıfvari və novçalıdır.

**Süzgəcli qablar** əsasən şarşəkilli gövdələri və ağızlarının kənarına yaxın süzgəcləri olmaları ilə fərqlənir IX-X əsrlər üçün xarakterik olsalar da onlardan sonrakı dövrlərdə də istifadə edilmişdir.

Formalarına görə **qazanlar** şarşəkilli, sıxılmış şar gövdəli və lüləkli olmaları ilə bir-birindən fərqlənir. Birinci qrup qazanlar IX-XIII əsrə aid təbəqədən, ikinci qrup qazanlar XI-XIII əsrlərə, lüləkli qazanlar isə XII-XIII əsrlər üçün xarakterik olsalar da, sonrakı dövrlərdə də hər üç nümunədən istifadə edilmişdir. XII-XIII əsrə aid olan lüləkli qazanlar çiyin hissələrinin dulus darağı ilə çəkilmiş düz və dalğavarı xətlərlə bəzədilməsi ilə də fərqlənir. Onlar Cənub-Şərqi Şirvan üçün xarakterikdir. Lülələri isə xörəyin suyunun asan boşaldılmasına xidmət etmişdir. Qulpsuz, iki və dörd qulplu qazanlara da rast gəlinir.

**Qapaqlar.** Cənub-şərqi Şirvanda aparılmış arxeoloji qazıntılardan müxtəlif formalı qapaqlar da aşkar edilmişdir. Onlar müstəvi və konusvarı formalı olmaları ilə fərqlənir. Sadə və ya primitiv bəzəkli qapaqların mərkəzində tutacaqları var.

**Dopu və piti qabları** kiçik ölçülü küplərin formasına uyğun hazırlanmışdır. Belə qablarda xüsusi yeməklər bişirilirdi və onlar ağzı novçalı olmaları ilə digər qablardan fərqlənirlər.

**Kasa və boşqab tipli qablar** sayca azlıq təşkil edir. Bu da çox güman ki, XI-XVII əsrlərdə əhalinin eyni tipli qabların şirli nümunələrinə üstünlük verməsi ilə əlaqədardır.

**Aftafalar.** Azərbaycanda islam dini qəbul edildikdən sonra aftafa adlanan tək qulplu və təklüləli qablardan istifadə olunmağa başlanmışdır. Aftafalara IX-XVII əsr təbəqələrində daha çox rast gəlinmişdir. Sonrakı dövrün aftafaları zəngin bəzəkləri, boğazlarındakı süzgəcləri ilə fərqlənir.

**Duz qabları** kiçik nəlbəkiyəbənzər, düz divarlı və kasa formasına oxşar hazırlanırdılar. Bəzi duz qablarının divarında xaricdən relyefli zolaqlar vardır.

Çıraqlar. Xalq arasında “durna çırağı və ya qaraçıraq” adlandırılan bu nümunələrə saxsı məmulatı içərisində çox təsadüf edilir. Formalarına görə bir-birindən qismən fərqlənsə də onların hamısı fitil yandırmaq üçün kiçik lüləklərə malikdir.

**Piydanlar** əsasən üç hissədən, üst, alt kasa və onları birləşdirən nazik oxdan ibarət olmaqla əhalinin məişət həyatında əsas yerlərdən birini tutmuşdur. Üst kasa alt kasaya nisbətən kiçik olub, ağzının kənarında mayenin alt kasaya tökülməsi üçün novçası vardır.

XVI əsrdən etibarən istehsal edilən **qəlyan başlıqları**nın əksəriyyəti dirsəkvari formalı olub, qəlibdə formalaşdırılmış və müxtəlif naxışlarla bəzədilmişdir.

Cənub-şərqi Şirvanın IX-XIV əsr yaşayış yerlərində arxeoloji qazıntılar zamanı **şarkonuslar** aşkar edilmişdir. Onlar əsasən armudvari, şiş oturacaqlı, şarşəkilli, düzbucaqlı və yastı oturacaqları ilə bir-birindən fərqlənir. Bəziləri isə sxematik təsvirli olub, tünd yaşıl rənglə şirlənmişdir. Müstəqillik illərində Qəbələ-Qala və Şıxməzid (Ağsu rayonu) abidələrində aparılan arxeoloji qazıntılar zamanı, IX-XII, XIV-XVI əsrlərə aid mədəni təbəqələrdən oturacağı ilə gövdəsi arasında ərəb dilində “Allah və Əli” sözləri yazılmış şarkonuslar aşkar edilmişdir. Bunlara əsasən şarkonuslardan heç də bütün dövrlərdə silah kimi istifadə edilmədiyi qənaətinə gəlmək olar.

IX-XVII əsrlərdə dulus kürələrinin forması təkmilləşdikcə inşaatda istifadə edilən saxsı məmulatı-kərpic, kirəmit, su tünglərinin, memarlıq abidələrinin fasadlarının bəzədilməsində istifadə olunan kaşı və fiqurlu kərpic istehsalı da çoxalırdı.

**İnşaat materialları.** Cənub-şərqi Şirvanın inşaat materialları içərisində - kərpiclər, saxsı borular, kirəmitlər, kaşılar əsas yerlərdən birini tutur.

IX-XI əsrlərə aid tikinti materialları içərisində çiy kərpic üstünlük təşkil edirdisə, sonrakı yüzilliklərdə əsasən çay daşı və bişmiş kərpicə üstünlük verilmişdir. XIV-XVII əsrlərdə inşaat materialları istehsalında çiy kərpicdən də paralel şəkildə istifadə edilmişdir. Evlərin çöl divarları bişmiş, daxili-arakəsmə divarları isə çiy kərpiclə inşa edilirdi.

**Kaşılar.** İnşaat-memarlıq keramikası nümunələrinin bir qismini kaşılar təşkil edir. Əsasən mavi, yaşıl, nadir hallarda isə ağ rəngli kaşılar forma etibarı ilə düzbucaqlı, rombvarı, paxlava formalı, iki, üç, beş və səkkiz tilli olmaları ilə fərqlənirdi.

**Kirəmit.** Orta əsr yaşayış yerlərində tapılmış inşaat keramikasının az bir qismi kirəmit nümunələridir. Onlar ölçülərinə və formalarına görə bir-birindən fərqlənir.

**Şirli saxsı məmulatı.** Cənub-şərqi Şirvanın IX-XVII əsrlərə aid abidələrindən aşkar olunmuş keramika məmulatının bir qismi nəfis şəkildə bəzədilmiş şirli qablardan ibarətdir. Şirli qablar istehsalına əsasən IX əsrdən başlanılmışdır. IX əsrdə bir rəngli (monoxrom) şirli qablar istehsal olunurdusa, XII-XIV əsrlərdə isə daha zəngin (polixrom) qabların istehsalı genişlənmişdir.

Dulus kürələrinin forması təkmilləşdikcə istehsal edilən saxsı qabların keyfiyyəti və çeşidi də çoxalırdı. Süfrə və mətbəx qabları həm daxildən, həm də xaricdən şirlənirdi. Sifarişlə işlənən qablar isə daha nəfis hazırlanırdı. Onların daxili səthi zəngin bəzədilməklə yanaşı, şux rənglərlə şirlənmişdir. Bəzi qabların kənarında ərəb dilində yazılara rast gəlinir. Belə qabların oturacaqları və mərkəzinə damğalar vurulurdu ki, bu ya sifariş verənin yaxud da qabı hazırlayan

ustanın kimliyini bildirirdi. Yazı ilə olan işləmələr isə onu hazırlayan ustanın yüksək peşəkarlığından və yazı mədəniyyətinə sahibləndiyindən xəbər verir.

**"Metalişləmə sənəti"** (2.4.2). Cənub-şərqi Şirvanın IX-XVII əsrlərə aid ayr-ayrı abidələrində aparılmış arxeoloji qazıntı işləri nəticəsində dəmirçilik sənətinə aid qiymətli materiallar, istehsal çıxarları, ərintilər, dəmirçilik və misgərlik emalatxanalarının qalıqları, orada çalışan ustaların iş prosesində istifadə etdikləri alətlər və digər maddi mədəniyyət nümunələri aşkar edilmişdir.

**Dəmirçilik** məmulatları məişət və tikinti əşyalarına təsnif edilməklə bıçaq, balta, nal, mıx,cəftə, halqa, ox və nizə ucluqları, qazan, cam, çıraqlar və s. ibarətdir.

**Zərgərlik** metalişləmə sənətinin mühüm sahələrindən biridir. Arxeoloji materiallar və mənbələrdən aydın olur ki, IX-XVII əsrlərdə Cənub-şərqi Şirvan bölgəsində sənətkarlığın bu sahəsi xüsusi inkişaf etmişdir. Dissertasiya işində zərgərlik nümunələri - baş, boyun, döş, yaxa, bilək, barmaq və geyim bəzəkləri kimi təsnif edilmişdir.

II fəslin üçüncü yarımfəsli "Şüşə istehsalı"(2.4.3) adlanır. Cənub-şərqi Şirvan bölgəsində aparılmış arxeoloji qazıntılar IX-XVII əsrlərdə burada yaşayan əhalinin məişətində şüşə məmulatının mühüm yer tutduğunu deməyə əsas verir. Buradan aşkar olunmuş maddi mədəniyyət nümunələri vaza, qədəh, maye qabları, və bəzək əşyalarından ibarətdir.

II fəslin dördüncü yarımbaşlığı "Digər sənət sahələri" (2.4.4) adlanır. Bu bölmədə daşişləmə və sümükişləmə sahələri tədqiqata cəlb edilmişdir.

**Daşişləmə** sənətinə aid nümunələrə kirkirə, çaxmaq və bülöv daşlarından hazırlanmış alətlər aiddir. Cənub-şərq Şirvan bölgəsi Xəzər və Kür çayının ətrafında yerləşdiyindən buradan çoxlu sayda daşdan hazırlanmış balıqçılıq ləvazımatları da aşkar edilmişdir.

Tədqiqatlar zamanı xeyli sümük məmulatının, sümükişləmədə tətbiq olunan sənətkarlıq alətlərinin, sümük çıxarlarının və yarımfabrikatların tapılması IX-

XVII əsrlərdə Cənub-şərqi Şirvan bölgəsində **sümükişləmə** sənətinin müstəqil sənət sahələrindən biri olmasını söyləməyə əsas verir..

Arxeoloji qazıntıların nəticələrindən, etnoqrafik müşahidələrdən və yazılı mənbələrin məlumatlarından göründüyü kimi IX-XIII əsrlərdə Cənub-şərqi Şirvanda sənətkarlığın ayrı-ayrı sahələri inkişaf etmiş və yeni peşələr yaranmışdır. Belə ki, dəmirçilikdən nalbəndlik, silahsazlıq, misgərlikdən qalayçılıq, gönişləmədən başmaqçılıq, çəkməçilk, dərzilikdən palançılıq, papaqçılıq, toxuculuqdan boyaqçılıq və s. peşələr ayrılmış və müstəqil fəaliyyət göstərmişdir.

Həmçinin daşişləmə, ağacişləmə və s. sənət sahələrində də yeni sahələr-bənna, memar, naqqaş, dülgər və s. peşələr yaranmışdır. Yeni peşə sahələrinin yaranması ixtisaslaşmış ustaların artmasına və yaranmaqda olan istehsal sexlərinin birgə fəaliyyət göstərməsinə şərait yaratmışdı. IX-XIII əsrlərdə mövcud olan sənət sahələri XIV-XVII əsrlərdə daha da inkişaf etmişdi.

Dissertasiya işinin III fəsli "İqtisadi və mədəni həyat" adlanır və iki yarımfəsildən ibarətdir. 3.1. İqtisadi əlaqələr adlı birinci yarımfəsil pul dövriyyəsi, ticarət yolları, körpülər və karvansaralar (3.1.2) başlıqları ilə yarımfəsllərlə bölünmüşdür.

IX-XVII əsrlərdə Cənub-şərqi Şirvan bölgəsinin iqtisdai əlaqələrinin inkişafında şəhərlə kənd arasındakı əlaqələr mühüm yer tutmuşdur. Kəndlər şəhəri kənd təsərrüfatı məhsulları ilə, şəhər isə kəndləri kənd təsərrüfatı alətləri və sənətkarlıq məmulatları ilə təmin edirdi. Cənub-şərqi Şirvanın iqtisadi əlaqələrinin inkişafında Bakı-Tiflis, Gəncə-Şamaxı-Bakı-Dərbənd, həttda Çinə qədər uzanan karvan yollarının da böyük əhəmiyyəti olmuşdur.

**Pul dövriyyəsi.** Tədqiqat işləri zamanı Cənub-Şərqi Şirvan ərazisindən dəfinələrin tapılması, xeyli miqdarda müxtəlif sikkələrin aşkar edilməsi bölgədə uzun müddət intensiv pul dövriyyəsinin davam etdiyini göstərir.

2010-cu ildə Kürdəmir rayonunun Muradxanlı kəndi ərazisində aşkar edilən 1132 ədəd dəfinədə çəkisi 5470 qram olan sikkələr XIV-XVI əsrlrdə Ərdəbil, Qəbələ, Bakı, Şamaxı və Dərbənddə zərb edilmişdir.

2011-ci ildə Qırxçıraq qazıntılarından aşkar olunan nümunələr Cəlairi, Hülaki hökmdarları, Qızıl Orda xanları, Qaraqoyunlu Qara Yusifin və Şirvanşahların adına zərb olunmuşdur. Şamaxıda və Təbrizdə zərb olunan sikkələrin dövrü XV əsrə aiddir.

**Körpülər.** Cənub-Şərqi Şirvanın tikintiləri içərisində orijinallığı ilə seçilən, yüksək tikinti texnikasına və memarlıq üslubuna malik bir və iki aşırımlı körpülərdir. XII əsrin sonu, XIII əsrin əvvəllərində inşa edilən körpülər yerli, habelə beynəlxalq əlaqələrin inkişafında böyük rol oynamışdır. İkiaşırımlı Qumlavar körpüsündən XVIII əsrin sonlarına qədər istifadə olunmuşdur.

**Karvansaralar-**ticarət yollarının əsas göstəricilərindən sayılır. Orta əsr müəlliflərinin və səyyahların gündəliklərində Cənub-şərqi Şirvanın karvansaraları haqqında maraqlı məlumat verilmişdir. Burada olan karvansara binalarının üst hörgüləri əsasən bişmiş kərpicdən olmuşdur.

III fəslin ikinci yarım fəsli (3.2) **"Mədəni həyat"** adlanır. Evlər, hamam, su təchizatı, elm kimi yarım fəsillərlə bölünmüşdür (3.2.1). Arxeoloji materiallarda, yazılı mənbələrdə Cənub-şərqi Şirvanın mədəni həyatı və IX-XIII əsrlərdə yerlərdə elmi mərkəzlərin yaranması haqqında ətraflı məlumat verilir. XI əsrin ortalarında oğuz tayfaları dilinin təsiri altında formalaşan Azərbaycan dili XII əsrdə ədəbi dil olaraq təşəkkül tapmışdır. Ədəbi mühitdə fars və ərəb dilləri ilə yanaşı Azərbaycan dilində də əsərlər yazılmışdır.

Mədəniyyətin bir qolu olan memarlıq ənənələri inkişaf etmiş və Azərbaycanda özünəməxsus yeri və əhəmiyyəti olan Şirvan-Abşeron memarlıq məktəbi yaranmışdı.

XIII əsrin əvvəllərində Azərbaycana hücum edən monqollar bir çox sahələrdə olduğu kimi, yerli mədəniyyətin də dağılmasına səbəb olmaqla yanaşı, həm də yerli mədəniyyəti mənimsəmişdilər. XIII-XV əsrlərdə yeni məktəblər, ali təhsil

müəssisələri təsis edilmiş, müasir təhsillə müqayisədə ibtidai təhsil “məktəb”, orta təhsil müəssisəsi isə “mədrəsə” adlanmışdır. Bu məktəblərlə yanaşı “yetimlər evi”, ”təlim evi” adlanan xeyriyyə müəssisələri də mövcud idi. Bu dövrdə Azərbaycan Şərqin ən mühüm mədəniyyət ocaqlarından biri sayılırdı.

III fəslin ilinci yarımfəsli (3.2.1**) “Evlər, hamamlar, su təchizatı sistemi”** adlanır. Arxeoloji və etnoqrafik tədqiqatlar göstərir ki, insanlar yaşayış yerlərini seçərkən strateji cəhətdən əlverişli yerlərə - yol və çay kənarlarına, su hövzələrinin yaxınlığına üstünlük verirdilər.

**Hamamlar.** Azərbaycanda islam dini qəbul edildikdən sonra karvansaralara yaxın yerlərdə və ya onların həyətlərində yardımçı binalar içərisində hamamların inşası vacib sayılırdı. Bu bir tərəfdən sakinlərin dəstəmaz almaları, digər tərəfdən isə uzun məsafə qət edərək ticarətə gələn tacirlər üçün vacib sayılırdı.

**Su təchizatı sistemi.** Cənub-şərqi Şirvanın Orta əsr şəhərlərində mədəni-məişət və təsərrüfat həyatı sistemli, mükəmməl su qurğularının olmasını tələb edirdi. Bölgə əhalisinin məişət və təsərrüfat ehtiyaclarını mütəmadi olaraq su ilə təmin etmək üçün bulaqlardan çəkilmiş arxlar və saxsı su tünglərindən istifadə olunurdu.

Dissertasiyanın nəticə hissəsində Cənub-şərqi Şirvanın IX-XVII əsr yaşayış yerlərinin arxeoloji tədqiqatlar və yazılı mənbələrin məlumatları əsasında öyrənilməsinin əhəmiyyəti qeyd olunmuş və mövzuya uyğun bir sıra ümumiləşdirmələr aparılmışır. Arxeoloji və etnoqrafik tədqiqatların nəticələri göstərir ki, Cənub-şərqi Şirvanın şəhər və kənd tipli yaşayış yerlərində intensiv həyat IX-XVII əsrlərdə də davam etmişdir. İlk dəfə olaraq yaşayış yerləri etimoloji baxımdan da araşdırılmışdır. Bölgənin beynəlxalq ticarət yolları üzərində yerləşməsi, daxili və xarici ticarətin mütəmadi aparılması pul dövriyyəsinin inkişafına zəmin yaratmışdır.

Aparılmış arxeoloji tədqiqatlar göstərir ki, Cənub-şərqi Şirvan IX-XVII əsrlərdə Azərbaycanın iqtisadi-strateji bölgələrindən biri olmuşdur.

Dissertasiyanın əsas məzmunu müəllifin aşağıdakı elmi məqalələrində öz əksini tapmışdır.


1. Azərbaycan xalqının qədim mifoloji təsəvvürləri (arxeoloji materiallar əsasında). Tarix və onun problemləri. Bakı. ADU-nun nəşri, 1999, №3-4, səh. 182-184.
2. Orta əsr Ərəbşahverdi toponimi haqqında. Azərbaycan arxeologiyası. "Xəzər Universitetinin nəşriyyatı". Bakı, 2002 №1-2, səh.101-104.
3. Qırxçırağın orta əsr saxsı məmulatı. Elmi araşdırmalar. AMEA Akad. Z.Bünyadov adına Şərqşünaslıq İnstitutu. VIII buraxılış, Bakı, 2006, №1-4, səh.358-361.
4. Cənub Şərqi Şirvanın bəzi pirləri. Azərbaycan arxeologiyası və etnoqrafiyası. Bakı, 2007, № 1.səh.141-146.
5. Cənub Şərqi Şirvanın orta əsrlər qəbirüstü abidələri haqqında. . Azərbaycan arxeologiyası və etnoqrafiyası. Bakı, 2008, № 2, səh. 75-80.
6. Hacıqabul rayonu bölgəsində tapılan antropomorf və zoomorf keramika məmulatı. Azərbaycan arxeologiyası." Xəzər Universitetinin nəşriyyatı". Bakı, 2008 №1-2, səh.82-87.
7. Cənub Şərqi Şirvanın orta əsr yaşayış yerləri. AMEA Tarix institutunun Elmi əsərləri. Bakı, 2009, №27, səh.57-63.
8. 2008-2009-cu illərdə Qəbələ şəhərinin Qala hissəsində aşkar edilmiş metal məmulatına dair. AMEA Azərbaycan Arxeologiyası və Etnoqrafiyası, 2010, №2, səh. 53-57.
9. Orta əsr Şəhərgah yaşayış yeri. Tarix və onun problemləri. BDU-nun nəşri, Bakı, 2011, №1, səh.227-232.
10. Orta əsrlərdə Ağsu şəhərində sənətkarlıq VII. Uluslararası Türk kültürü, sanatı ve Kültürel Mirası koruma Sempozyumu. 26-29 sentyabr 2013. Bakü-Azerbaycan, səh. 145-152 // 1028 səh.
11. Orta əsrlərdə Cənub-Şərqi Şirvanın ticarət əlaqələri (tarixi –arxeoloji materiallar əsasında). VII. Uluslararası Türk kültürü, sanatı ve Kültürel

Mirası koruma Sempozyumu. 26 – 29 sentyabr 2013. Bakü-Azerbaycan, səh. 347-354 // 1028 səh.

12. Orta əsrlərdə Azərbaycanda süfrə mədəniyyəti (Ağsu materialları əsasında) IV Beynəlxalq Avrasiya Arxeologiyası konfransı. 1-5 oktyabr -2012 Ağsu-Azərbaycan. Bakı / Baku -2015. səh. 244-246.

13. Metal working art in Aghsu. Гілея. КИIВ.

***Э.И.Аббасова***

**Средневековые поселение Юго-восточного Ширвана (IX-XVII вв.)**

**РЕЗЮМЕ**

Диссертационная работа состоит из списка сокращений, введение, трех глав, заключения, списка использованной литературы и иллюстрации.

Во введении даны сведения об актуальности темы, хронологической рамки исследования, объекте исследования, целях и задачах исследования, источниковедческой базе темы, научной новизне и практической значимости исследования, апробации и структуре исследования.

I глава диссертации называется “Средневековые поселения Юго-восточного Ширвана” и делится на пять подглав: “Поселения сельского типа” (1.1), “Поселения городского типа” (1.2), “Временные место проживание” (1.3), “Могильные памятники” (1.4), “Общественные и мемориальные памятники” (1.5).

В этой главе даются обширные сведения о местности поселений, топонимике, о типе могильных памятников, религиозных взглядах.

II глава диссертационной работы называется “Хозяйственная жизнь” и делится на подглавы: “Природно-географические условия региона” (2.1), “Земледелие” (2.2), “Скотоводство” (2.3), “Ремесло” (2.4), а также “Гончарное дело” (2.4.1), “Металлообработка” (2.4.2), “Производство стекло” (2.4.3), “Другие отрасли ремесла и виды профессии” (2.4.4).

Наряду с археологическими материалами, даются сведения о рабочих инструментах и эти археологические материалы исследуются сравнительно.

III глава диссертации называется “Экономическо-культурная жизнь” делится на подглавы: “Экономические отношения” (3.1), “Денежный оборот” (3.1.1), “Торговые пути, мосты и каравансараи” (3.1.2), “Культурная жизн” (3.2), “Дома, бани и водоправодная система” (3.3). В этой главе даются сведения о сикках обнаруженных в поселениях, каравансараях, мостах и об их необходимости. Подглаве под названием “Культурная жизнь” даются сведения о научно-культурных центрах данного периода, домах, банях и системе водоснабжения.

В заключительной части диссертационной работы поселений Юго-восточного Ширвана IX-XVII веков обобщаются на основе археологических исследований.

**E.I.Abbasova**

**The medieval settlements of South-east Shirvan (IX-XVII centuries)**

**SUMMARY**

Dissertation work consists of the adopting abridgements, introduction, three chapters, conclusion, the list of the used literature, the illustrations.

In the introduction it deals with the topicality of the theme, chronological frame, history of study, level of its studying, aim and berth, method, basis of the source, scientific novelty, importance of practice, approbation and structure.

I chapter of dissertation work is called "The medieval settlements of South-east SHirvan" (1.1) and consists of five sub-chapters: "The rural type settlements" (1.1), "The urban type settlements" (1.2), "The residences" (1.3), "The grave monuments" (1.4), "Public and memorial buildings" (1.5)/

It was given extensive information about the territory of settlements, toponims, types of grave monuments, religious beliefs.

II chapter is called "The economic life" and consists of four sub-chapters: "The natural-geographical conditions of region" (2.1), "Agriculture" (2.2), "The cattle-breeding" (2.3), "The handicraft" (2.4), also, "Pottery" (2.4.1), "Metal working" (2.4.2), "Glass production" (2.4.3), "Another art areas and professions" (2.4.4). It was given information about not only archaeological materials, but also tools, also, had done comparative analyses.

III chapter which called "Economic and cultural life" consists of sub-chapters like as "Economic ties" (3.1), "Coin circulation, trade roads, bridges and karavansarais" (3.1.1), "Cultural life" (3.2), "Buildings, bathrooms, water supply system" (3.2.1). It was studying about coins which unearthed from settlements, karavansarais, bridges and their local and international importance. In the sub-chapter which called "Cultural life" had been given information about scientific centers, buildings, bathrooms and water supply systems of the period.

The thematic generalizations had been given about the history of IX-XVII centuries of South-east Shirvan settlements on the basis of the archaeological researches in the "Conclusion" part of the dissertation work.